# NƏ QƏDƏR SÖZ VAR...



**Şəddat CƏFƏROV**

***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Ədəbiyyat tarixinin elə obrazları var ki, yaşadıqları zamanın ədəbi mühitini kifayət qədər güzgü kimi göstərə bilirlər. Biz Nizamini təkcə bəşəri dəyərləri olan əsərlərinə görə deyil, həm də zamanı göstərmək gücünə görə öyrənirik. Çünki sənətkar nə qədər öz mühiti ilə təmasda olursa, onun yaradıcılığı dövrü öyrənmək baxımından bir o qədər dəyərli olur. Biz Nizamidən öyrənirik Bərdənin taleyini, biz Nizamidən öyrənirik Gəncə zəlzələsinin yaratdığı faciənin miqyasını, Atabəylər zamanın qüdrəti, gücü barədə məlumat alırıq Nizamidən. Yaxud Füzuli irsi bizə öyrədir ki, onun zamanında da rüşvət verməyənin işi düzəlmirdi. Hətta hədə-qorxuların da kara gəlmədiyini görmək kifayət qədər ağrılı düşüncələr yaradır.

Azərbaycan mədəni və mənəvi baxımdan 30 il, 40 il bundan əvvəlki ölkə deyil, heç iqtisadi, hərbi baxımdan da əvvəlki ölkə deyil. Çünki Azərbaycan müstəqillik qazanandan sonra çox böyük tarixi bir yol keçdi. Bu günkü Bakımızın simasını yalnız dünyanın ən möhtəşəm şəhərlərinin siması ilə müqayisə edə bilərik.

Mədəni və mənəvi mühit də sürətli inkişaf yolu keçir. Azərbaycan şairləri, yazıçıları, kinomuzu, teatrımızı - bir sözlə, sənət mühitimizi təmsil edən ədəbi simalar Azərbaycanın müasir dövrünü qanunauyğun tarixi inkişafın yeni mərhələsi kimi təqdim edir.

Hər bir sənətkarın əsərlərinin öyrənilməsi, yaradıcılığının təhlil olunması bizə imkan yaradır ki, mənəvi inkişafımızın da necə yeni düşüncə dəyərləri kəsb etdiyini daha aydın təsəvvür edək. Bir sözlə, Qarabağı işğaldan azad edən ordunun yeni Azərbaycanın obrazı olduğunu tam mənəvi haqla təsdiq edə bilərik.

Dostum Əli Rza Xələflinin *"Kredo"* qəzeti Azərbaycan cəmiyyətinin bu günkü siması uğrunda sözün həqiqi mənasında mücadilə aparır. Bu qəzetdə biz böyük uğurların bədii salnaməsini görürük.

Hər halda hər bir qəzet həm də baş redaktorun mənəvi simasıdır. Üstəlik *"Kredo"* qəzeti həm də Əli Rza Xələflinin bədii-estetik görüşlərinin güzgüsüdür. Çünki bu qəzetdə onun bütün publisist yazıları, ədəbi-tənqidi materialları, ədəbiyyatşünaslığın tədqiqinə həsr olunmuş əsərləri və əlbəttə, həm də bədii yaradıcılıq örnəkləri ilk dəfə işıqlığa çıxır. Əgər belə demək mümkünsə, biz onun yaradıcılığının nümunələrini ilk variantda *"Kredo"* qəzetindən oxuyuruq. Təbiidir ki, onun yaradıcılığını şərtləndirən əsərlər haqqında yazan müəlliflərin ilkin ədəbi qeydlərini bu qəzetdə görməyimiz qanunauyğundur.

Əli Rza Xələflinin yubileyləri mərhələsində buraxılan kitabların layihə müəllifi mən olsam da, bu kitablar üçün materialları toplamaq unudulmaz filosof-tənqidçimiz Sabir Bəşirovun işi idi. Təəssüf ki, onun qəfləti ölümü bu seriyadan olan kitabların axıracan təqdimini mümkün etmədi. O, *"Əli Rza Xələfli - 65"* seriyasından kitabların ikinci cildinin də materiallarını axıracan hazırlaya bilmədi. Ancaq işi yarımçıq da qoymaq olmazdı. Görkəmli filosof-tənqidçimizin xatirəsinə ehtiram olaraq bu işin axıra çatdırılmasını akademiyanın o vaxt *"Müasir ədəbiyyat"* şöbəsinin müdiri, filologiya elmləri doktoru, görkəmli yazıçı-alim Elçin Mehrəliyevə həvalə etdik. O, xahişimizi nəzərə alaraq toplanmış materialları sistemə saldı. Kitaba *"Ön söz"* yazdı. Beləliklə, *"Əli Rza Xələfli - 65"* seriyasından ikinci cild də nəşrə təqdim olundu.

Ənənəyə uyğun olaraq yenə kitabın əvvəlində Əli Rza Xələflinin *"Sənətin şərə qarşı döyüşü"* adlı bir essesini epiqraf etməyi qərara aldıq. Bu esseni də mən Əli Rza Xələflinin *"Həsrətdən üzü bəri"* kitabından seçmişdim. Həmin esseni indi xatırlatmağın yeridir: *İnsan mənzərələri, insan dünyaları təkrarsız, bənzərsiz, orijinal əsərlərdir. Bütün bunlar Tanrının yaratdıqlarıdır. Tanrı öz kitabını insan dünyasına onun taleyi kimi yazır, qismət kimi yazır, qəza-qədər kimi yazır. Hər kəs öz həyatının mənasını dərk etdikcə bu Tanrı kitabını zənginləşdirir. İnkar oluna bilməz ki, insan aləminin xeyir və şər adlanan qütbləri var. Kimsə xeyir dünyasına qovuşur, kimsə şər dünyasına. Ədəbiyyatın, sənətin borcu şər dünyasına gedən yolun qarşısını kəsməkdir. Sənət adamları arasında öz taleyini, tərcümeyi-halını yazan müəlliflər var. Yaxud başərin tərcümeyi-halını yazan müəlliflər var. Qətiyyətlə demək olar ki, hər iki halda əgər sənətkar yüksək insan ideallarını tuta bilirsə, bunu orijinal hisslərlə, ali duyğularla verə bilirsə, demək, məqsədinə nail ola bilir* · Əlbəttə, annotasiya qeydləri, kitabın ümumi tərtibatı, seçilmiş şəkil - bunlar hamısı bir poliqrafçı olaraq mənə aid idi. Elçin Mehrəliyev ziyalı fədakarlığı ilə kitabı axıracan izlədi və kitaba çox dəyərli bir *"Ön söz"* yazdı.

Görkəmli yazıçı-alim Elçin Mehrəliyevin *"Redaktordan"* qrifi ilə *"Biz gedərik, söz qalar"* adlı yazısını indi dərin təəssüratla oxuyuram. Elçin Mehrəliyev *"Əli Rza Xələfli - 65"* adlı ikicildliyin *"Ön söz"*ündə unudulmaz Sabir Bəşirova hörmətlə onun sözlərini yada salır: «*Dəxli yoxdur, bunlar Əli Rza Xələflini qorxutmur. Elə onun son dövr yaradıcılıq faktlarını gözlərimizin önünə bir daha gətirək... Bu isə o deməkdir ki, sənətkarın yolunu asanlıqla bağlamaq mümkün deyil. Tanrıdan bəxş olunan yaradıcılıq istedadı əbədi çağlar bulaqdır. Nə qədər ki, sənətkar yaşayır, o, daha da zənginləşəcək. Sənətkarın özündən sonra yenə çağlayacaq; ruhu, mənası, mahiyyəti ilə...*». Və elə bu qeydlərdən sonra müəllif Sabir Bəşirovun həyatdan vaxtsız getməsi ilə bağlı ağrılı təəssüratlarını da ifadə edir.

Elçin müəllim kitabdakı ayrı-ayrı yazılara dəqiq və aydın münasibət bildirməyi də unutmur. Xüsusilə onun Əli Rza Xələflinin öz yazılarına münasibəti məndə xüsusi maraq doğurdu. Çünki hiss edirəm ki, Elçin Mehrəliyev həm Xələflinin mühakimələrinə hörmətlə yanaşır. Həm də bu mühakimələrin elmiliyini diqqət çəkən hesab edir. Yəqin ki, o istəyir ki, bu mülahizələr polemikaya şərait yaratsın. Elçin Mehrəliyev yazır: *"Bu yazılar sırasında Əli Rza Xələflinin iki xatirə poeması («Anamın nağılı» və «Bir çinar hekayəti») və «Əkinçiyəm» sərlövhəli etnoqrafik-publisistik qeydlərini xüsusilə diqqətə çatdırmaq istərdim. Xatirə poemaların zəngin yaddaş xəzinəsinə istinadla yazılması bu əsərlərin canlılığını təmin edir. Oxucunu Qarabağ ağrıları üstə kökləyir, ruhunu gələcək mübarizələrə səfərbər edir. Sənətkarın 65 illik yubileyi ərəfəsində bu əsərlərin oxucuya ünvanlanması söz və zaman - zamanın sözü və sözün zamanı mahiyyətinə işıq salır. Və şairin hansı düşüncələrlə yaşadığını bir daha göstərir. «Əkinçiyəm» sərlövhəli etnoqrafik-publisistik qeydlərində şairin çox maraqlı müşahidələri də yer alıb. Bir-iki məqamı diqqətə çəkmək istərdik; birinci Şivran adı ilə bağlı müşahidədə oxuyuruq:* ***"Babək zamanında insanlar Şirva adlı Tanrısal qüvvəyə hələ də üz tutur, ondan kömək umurdular. Bu gün Şirvan adının ucuz və dayaz şərhini verənlər hələ Avesta təfəkküründən gələn bu mənəvi güc mənbəyindən görünür xəbərsizdirlər. Xıdır Zində dağı məşhurdur. Canlı, diri Xıdır adı - Xızır seçilmişin adı ilə bağlıdır."*** *Əli Rza Xələfli "Şirvan" sözünü antik dünyanın o üzündəki Şirva tanrısı ilə bağlayır"*. Bu qeydlərdə nəyin düz, nəyin səhv ola biləcəyini aydınlaşdırmaq tədqiqatçıların işidir. Amma hər halda Xələfli bu kitabda verilmiş qeydlərində polemikaya meydan açan mülahizələrini təqdim etməkdən çəkinmir.

Daha bir məqam da oxucular üçün maraqlı ola bilər. Elçin Mehrəliyev Xələflinin mülahizələrinə yenə meydan verir. Və bu mülahizələrin nə qədər mübahisəli olub-olmayacağının fərqi oxuyucunun ixtiyarına buraxılır. Doğrusunu deyim ki, kitabda və redaktorun *"Ön söz"*ündə xatırlanan, ilk baxışdan mübahisəli görünə biləcək məsələlər mənə də çox maraqlı gəldi. Elçin Mehrəliyev *"Ön söz"*ündə Xələflinin mülahizələrini təqdim etməzdən əvəl yazır: *"Şirvan antroponiminin qədim tanrısal gücə bağlı müşahidə maraqlıdır, ona görə də, mütəxəssislərin diqqətini cəlb edəcəyinə inanırıq. Daha bir neçə maraqlı müşahidələr də var. Aşıq Ələsgərin «Dağlar» qoşmasındakı «aralı» qüsurlu qafiyəsi və bir də Səməd Vurğunun Aşıq Şəmşirə xitabən yazdığı qoşmada yer almış təhrif («Ceyran bulağından qızlar içəndə») haqqında Əli Rza Xələflinin müşahidələri də müasir oxucular üçün çox maraqlı ola bilər"*. Bəli, doğru deyir, maraqlı ola bilər. ‹Hər birimiz üçün maraqlı ola bilər. Biz nə üçün indiyə qədər Xələflinin müşahidə etdiyi məqamları az qala 70 il ərzində görməmişik, duymamışıq? Və bundan sonra kitabın redaktoru Əli Rza Xələflinin *"Əkinçiyəm"* adlı yazısından müvafiq hissəni, görünür, oxucu marağını nəzərə alaraq olduğu kimi təqdim edir: «***On illər boyu (otuz il) Aşıq Ələsgərin məşhur "Dağlar" qoşmasında "aralı" sözünün düzgün qafiyə olmadığını izahlarla sübut etmək istəsək də qəbul olunmurdu. Çünki artıq yaddaşlardan itməkdə olan "alalı" (fərqli) sözünü dil az qala tamam çıxdaş etmişdi. "Alalı" sözü ilə bağlı bu mübarizəmi professor Məhərrəm Hüseynov "Əli Rza Xələflinin "alalı" sözü ilə bağlı mücadiləsi" adlandırır. Və daha bir söz məşhur qoşmada öz yerini tutur.***

**Bahar fəsli yaz ayları gələndə,**
**Süsənli, sünbüllü, lalalı dağlar.**
**Yoxsulu, ərbabı, şahı, gədanı**
**Tutmaz bir-birindən alalı dağlar.**

***Böyük Səməd Vurğunun Aşıq Şəmşirə müraciətlə məşhur qoşması dillər əzbəridir.***

**Aşıq Şəmşir Dəli dağdan keçəndə**
**Kəklikli qayadan xəbər al məni.**
**Ceyran bulağından qızlar içəndə**
**Saz tutub, söz qoşub yada sal məni.**

***Nə qədər izah etsəm də, yenə aşıqlar "qızlar içəndə" ifadəsini dəyişmir. Axı S.Vurğun elə deməzdi. Deyərdi ki:***

**Ceyran bulağında, qızlar içində**
**Saz tutub, söz qoşub yada sal məni.**

***Qeyd edim ki, şair Əhməd Fərhadın (Cəbrayıl) bu kimi məqamlarla bağlı maraqlı müşahidələri var. Hələ bu misranın* "Ceyran bulağında, yığnaq içində" *oxuna bilən variantı da var. Təəssüf ki, aşıq mühiti və elə Vurğunşünaslar da susqunluq göstərirlər*»**. Mən bu qeydləri diqqətlə, bir də oxudum. Redaktorun Əli Rza Xələfli məntiqinə inamına şərik olduğumu danmıram.

Bizim ən böyük missiyamız özümüzdən əvvəl dünyadan köçənlərə hörmət və ehtiramımızı unutmamaqdır.

* * *

Ədəbiyyatımızın klassik dövrünü, əgər belə demək mümkünsə, Nizamidən üzü bəri yaşayıb-yaratmış sənətkarlarımızı nə qədər onların yaradıcılığından, öz əsərlərindən öyrəniriksə, bir o qədər də onların haqqında yazılmış təskirələrdən məlumat alırıq. Yəni şairin, sənətkarın öz zamanında yazılmış rəylər, fikirlər, mülahizələr zaman keçdikcə ən etibarlı mənbə kimi həmişə diqqət mərkəzində olur. Azərbaycan ədəbiyyatı tarixini araşdıran müəlliflər zamana güzgü tutan təskirələri (dövrü təsvir edən ədəbi mənbələr) ən tutarlı mənbə hesab edirlər. Elə bu səbəbdən də mən dövrümün sənətkarları haqqında yazılan müəllif qeydlərinə xüsusi əhəmiyyət verirəm.

Bu qeydlərimdə Əli Rza Xələflinin həyat və yaradıcılıq yolunu işıqlandıran müəllif yazıları mənim üçün çox dəyərlidir. Çünki bu yazılarda mütəxəssis düşüncələrindən, qənaətlərindən, təhlillərindən başqa həm də sənətkarı tanıyan, onu yaxından müşahidə edən müəlliflərin qeydləri də az deyil. Zənnimcə, elə bu səbəbdən *"Əli Rza Xələfli - 65"* kitabının ikinci cildinə cəmlənmiş yazılar xüsusi dəyər kəsb edir.

***(Davamı 11-ci səhifədə)***

# NƏ QƏDƏR SÖZ VAR...

*(Əvvəli ötən sayımızda)*

Məlum olduğu kimi bu kitabın ikinci cildinin əsas əziyyətini filologiya elmləri doktoru Elçin Mehrəliyev öz üzərinə götürüb. Əslində o, kitab nəşrə hazırlanarkən gördüyü işi humanist mövqedən özünə borc bilirdi. Amma bizim tələbimizlə (birinci növbədə mənim və Əli Rza Xələflinin istəyi ilə) imzasından imtina etmədi. Və kitaba *"Redaktordan"* qrifi ilə dəyərli bir *"ön söz"* də yazdı. Mən artıq bu barədə danışmışam.

Bir sözlə, əsas bizi birləşdirən dəyərlər sözlə bağlı oldu. Ədəbi mövqelərimiz uyğun gəldi və Elçin Mehrəliyevin dəyərli zəhməti öz imzası ilə bu kitabda da göründü. Qeydlərinin bəzi məqamlarını əvvəl də şərh etmişəm. Ancaq mən bütün sahələrdə hər kəsin zəhmətini yerində, qədərincə qiymətləndirməyin tərəfdarıyam.

Bu kitabda Sabir Bəşirovun xatirəsini əbədiləşdirən məqamlar az deyil.

Elçin Mehrəliyev də *"Əli Rza Xələfli - 65"* kitabında əsas obrazın öz dostunun ölümünə ağrı ilə yazdığı qeydləri bir daha yada salır: *"Sabir Başirovla Əli Rza Xələfli arasında əqidə və amal dostluğu vardı. Hətta onun vaxtsız ölümündən sonra Əli Rza Xələflinin elegiya-essesini qələm dostları - eləcə də, mən, bir sözlə, biz çox ağrı ilə qarşıladıq. Onun "Kredo" qəzetində (№25, 11 oktyabr 2018) dərc olunmuş başdaşına epitafiya üçün yazdığı dördlüklərin ağır təəssüratını uzun müddət unuda bilmədik.*

**Əbədi qalmaz bir gül, bir gün solar dünyada,**
**İnsan da bir ömürlə qonaq olar dünyada.**
**Hər kəsin ruhu uçar, torpaq olar bədəni,**
**Aqillər sözü ilə yenə qalar dünyada.**

**Bizi bilən, anlayan, hörmətdə tapar yenə,**
**Söz nədir - bilən olsa, qiymətdə tapar yenə.**
**Dövranın küləyində sovrulsa da canımız,**
**Bizi soran, axtaran hikmətdə tapar yenə.**

**Yazıya pozu yoxdu, - qayada, daşda qalar,**
**Silinməz xatirələr - sirdə, sirdaşda qalar.**
**Düşünmə ki, həyatın qurtarıb qeyb olacaq...**
**Sözünlə, əməlinlə - adın yaddaşda qalar.**

*Əli Rza Xələfli «Dağları dərdli gördüm» adlı elegiya-esse ilə öz dostuna söz abidəsi yonub. Mən əlavə tərtibçi missiyası ilə həmin yazının bu kitaba daxil edilməsini də vacib hesab etdim. Axı dünya kimsə üçün əbədi deyil, dünyanın bircə əbədiyyət ünvanı var: Söz - özü də dəyərli söz, yaddaşda yaşayan söz.*

*Onu da deyim ki, Sabir Bəşirov Əli Rza Xələflinin həyatını və yaradıcılığını son 15 ildə ən ardıcıl izləyən ədəbi simalardan idi. Təsadüfi deyil ki, o, Əli Rza Xələflinin həyat və yaradıcılığını özündə ehtiva edən «Əli Rza Xələfli: Ədəbi yol, əbədi yol» adlı esse düşüncələr - monoqrafik tədqiqat kitabının da müəllifidir. Bir təəssüf də burada yerinə düşür. Həmin monoqrafik tədqiqat kitabının oxucu əlinə çatmasından on gün əvvəl Sabir müəllim dünyasını dəyişdi. Sabir Başirov sözə yüksək əyarla dəyər verən filosof tənqidçi idi və onun qeydlərində, xüsusilə, «Əli Rza Xələfli: Ədəbi yol, əbədi yol» kitabında sözə orijinal yanaşma tərzinin təzahürünü görürük. Bu kitab göstərir ki, o, Əli Rza Xələflini bir müəllif kimi çoxtərəfli qavraya bilib. Şübhəsiz, bu da onun müəllifin yaradıcılığına bələdliyi, xüsusi sevgi hissiylə yanaşmasından asılı olub".* Beləliklə, biz ədəbiyyat tariximizin müəyyən bir dövrünü ədəbi salnaməyə çevirən bir kitabla daha yaxından tanış olduq. Bu kitabda Əli Rza Xələfli haqqında əvvəllər də yazan müəlliflərin yazıları var. Amma hər halda yeni imzalar da az deyil. Bunlardan biri də Tamilla Məmmədova adlı bir publisistdir. O, *"Yazın, yaradın"* adlı qeydləri ilə Xələflinin yaradıcılığını ardıcıl izlədiyini xüsusilə diqqətə çatdırır.

Tamilla Məmmədova İkinci Cahan müharibəsində şücaət göstərmiş Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun qardaşı qızıdır. O, Xələflinin yaradıcılığını ardıcıl izləyir. *"Söz və qan"* kitabında isə hətta qəhrəman əmisi ilə bağlı məqama da rast gəlib. Və bunu yazdığı məqalədə diqqətə çəkib: ***"Mən bu məktubu birinci dəfə sizə göndərəndə hələ «Söz və qan» kitabınızı oxumamışdım. Həmin kitabı oxuyandan sonra məktubumu təzədən yazmaq qərarına gəldim. Həmin əsərdə siz mənim əmim, Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovu da xatırlamısınız:*** *"Mübariz qucaqladığı gənclərin ürək döyüntülərini öz varlığında hiss elədi. O sovet hərbi məktəbində - Kiyevdə ali təhsil almışdı. Həmin hərbi məktəbdə məsləhətçi olan bir general onun xatrini çox istəyirdi. Bu da səbəbsiz deyildi. General ikinci Cahan savaşında Tuapsedə Qafur Məmmədovla bir hissədə vuruşmuşdu. Qafur onun həyatını xilas eləyib özünü güllənin qabağına vermişdi. İlk dəfə Mübarizi görən general təəccüblə dayanıb baxmış və ondan soruşmuşdu: - Sən Qafurun qohumusan? Mübariz karıxmış, Qafur adlı qohumlarının olub-olmadığını düşünmüşdü. Axır ki, ağlına bir tanış Qafur adlı qohumu gəlmədiyindən çiyinlərini çəkmişdi. - Hansı Qafurun, yoldaş general? - demişdi. - Mənim həyatımı xilas edən Qafurun, müharibədə, Tuapsedə. - Xeyr, yoldaş general, mən Qarabağdanam. - Hə, mən hərdən Şuşaya gedirəm, gözəl yerlərdir, ancaq sən Qafur Məmmədova çox oxşayırsan..."* Beləliklə, kitabın çox dəyərli məziyyətləri var və bu barədə geniş söhbət açmaq oxucular üçün nə qədər maraqlı olsa da, bir qəzet yazısı üçün elə bu qeydləri də kifayət hesab etdik.

Bu kitabda - *"Əli Rza Xələfli - 65"* seriyasından ikinci cilddə başqa da maraqlı imzalarla rastlaşmaq mümkündür. Xüsusilə şair Ayaz İmranoğlunun (Nurayaz İnamsoy) Xələfli ilə apardığı müsahibədə oxucular üçün də maraqlı olacaq bir xatirəyə rast gəldim. Zənnimcə, belə xatirələrin müasir oxucu üçün də, lap elə gələcəyin gəncləri üçün də dəyərli olduğunu nəzərə alıb bir daha diqqətə çəkmək yerinə düşər: "Bir dəfə də Aktyor Evində bir tədbir aparırdı(söhbət görkəmli filosof-tənqidçi Asif Əfəndiyevdən - Asif Atadan gedir). Bir tarzən səhnəyə çıxıb muğam çalacaqdı, ayağı ilişdi mikrofonun naqillərinə və tarzən özünü yıxılmaqdan güclə saxladı. Salonda güclü bir çaxnaşma oldu, səs-küy yarandı. Elə bil ki, hamının dinləyicilik diqqəti pozuldu. Amma tarzən əyləşdi, bəlkə də heç elan olunan muğamı çalmadı. Özü nəsə başqa bir muğam çaldı və salonda qəribə bir sükut yarandı. Və tək düşən işığın fonunda Asif Atanın səsi gəldi: *"Bax, sənət budur!". İndi deyirik ki, Azərbaycan muğamı Azərbaycan xalqına bütöv şəkildə indi qaytarılır - Azərbaycanın müstəqillik dövründə. Amma Azərbaycan muğamının Azərbaycan xalqına qaytarılması prosesi, əslində Asif Atanın ədəbi-fəlsəfi təfəkküründə çoxdan başlamışdı. - Muğamçılığımızdan. Muğama Asif Ata canlı xalq eposu kimi baxırdı. Əgər Dədə Qorqud kimdirsə(bütöv kitabdan söhbət gedir), eləcə də Asif Atanın təfəkküründə muğam o idi. Yəni muğam belə bir epos mahiyyəti kəsb edirdi. O dövrdə Asif Atanın muğamla bağlı, o dövrün ədəbi tənqidi ilə bağlı yazdığı yazıların hamısını oxumuşam. Vaxtı ilə onlara mən ideal səviyyədə yanaşırdım, baxmayaraq ki, sonralar Asif Atanın ədəbi-tənqidi görüşlərində o yanaşmaların bir çoxu yerini dəyişdi".* Əlbəttə, bu qeydlərdə bəzi anlaşılmayan, aydın olmayan məqamlar da hiss oluna bilər. Amma əsas odur ki, zamanında görkəmli filosof Asif Əfəndiyev muğamı qeyri-adi dərəcədə idealizə edirdi.

İndi müsahibədə Ə.Xələflinin cavabı məndə tamam yeni düşüncələr oyadır. Bu gün Azərbaycanın mənəvi mühiti zəngin tarixi dəyərlərimizə dönüşlə xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev fondunun, xüsusilə birinci xanım mehriban Əliyevanın diqqəti sayəsində muğamın bir irs kimi qorunub saxlanılması, inkişaf etdirilməsi diqqətdədir. Özü də xüsusi diqqətdədir. Muğam müsabiqələri keçirilir. Ardıcıl olaraq keçirilən muğam müsabiqələrində çoxlu istedadlar üzə çıxarılır. Özü də təkcə muğam oxuyanların timsalında yox, həm də musiqi alətlərində ifa edən istedadların da üzə çıxarılmasında bu müsabiqələrin böyük əhəmiyyəti danılmazdır. Elçin Həşimov tarda, Elnur Əhmədov kamançada, Sahib Paşazadə tarda, Toğrul Əsədullayev kamançada ifaçılıqları ilə artıq Azərbaycandan kənarda da məşhurdur. İstedadlı muğam ifaçılarının adlarını isə sadalasam, söz çox uzanar. Yəni onu demək istəyirəm ki, Əli Rza Xələfli təkcə ədəbi-bədii yaradıcılığında yox, həm də mənəvi mühitində Azərbaycan dəyərlərini uca tutmaq baxımından təqdirəlayiq ziyalılarımızdandır.

*"Əli Rza Xələfli - 65"* kitabının II cildində çox istedadlı şair, divanlar ustadı Gülarə Munisin hərarətli düşüncələri də diqqətimi cəlb etdi. Çünki bu düşüncələri o Əli rza Xələfli yaradıcılığına yanaşmasından od alaraq qələmə alıb: *"Söz nədir? Ürəyin hərarəti, gözün nuru, dilin şəkəri, dərdin əlacı, yaraların məlhəmi, tənhaların həmdəmi, kimsəsizlərin hasipanı, ümidsizlərin ümidi, həsrətlilərin qovuşması, hicran çəkənlərin vüsalı, intizarın sonu, soyuq könülləri isidən, incik düşənlərin arasında bir körpü yaradan, qəlbiqırıqları sevindirən, yol gözləyənlərə təsəlli verən bir meyar! O söz ki, hərflərin qovuşmasından yaranar, o söz ki, qəlblərin dərinliyindən süzülüb vərəqə düzülər, qəvvas dəryadan inci yığan kimi, söz aşiqləri də məna dənizindən kəlam adlı gövhər yığar, onları sətirlərə düzər və söz xiridarına ünvanlayar".* Necədir, əziz oxucu? Bu cür ürəkdən, könüldən gələn notları yazıya gətirmək asandırmı? Əlbəttə, çox çətindir. Amma müəllif Əli Rza Xələfli yaradıcılığına münasibətini ifadə edəndə onun könül duyğuları beləcə qanadlanır. Duyğular isə yox yerdən sözə çevrilmir, gərək mənbə olsun, istinad olsun. Şair, divanlar ustadı Gülarə Munisin bu çağlar duyğuları sözlə nəfəs alan hər kəs üçün qaynaq ola bilər. Elə Əli Rza Xələflinin yaradıcılığı da bu cür sözlərin yaranmasında əsas olduğuna görə dəyərlidir.

*"Əli Rza Xələfli - 65"* kitabının II cildində professor Bədirxan Əhmədlinin qeydləri də diqqətimi cəlb etdi. Kiçik bir parçanı oxucular üçün maraqlı olacağı zənni ilə diqqətə çəkmək istərdim. Müəllif Əli Rza Xələflinin *"Üzü Qarabağa"* adlı kitabına yazdığı *"ön söz"*ündə *"Göyəzəndən bəri gəl"* poeması ilə bağlı düşüncələrini belə ifadə edir: *"Göyəzəndən bəri gəl"* poeması haqqında isə hələ bundan sonra çox danışılacaq. Doğrusu, indiyəcən poemanın ədəbi tənqid və ədəbiyyatşünaslığın dəyərləndirməməsi onun passivinə yazılmalıdır. Nədən ki, bu poema həm məzmunu, həm strukturu, həm də sənətkarlıq baxımından əhəmiyyətlidir. Şair Xələflidən Qazax mahalına - Barat Vüsala üz tutaraq tar-mar olan vətənin ağrılarını müraciət formasında üzə çıxarır, çağdaş həyatın gerçəkliklərini, ziddiyyətlərini bütün mahiyyəti ilə ifadə edir. Poemanın hər sətrində, bəndində, demək olar ki, xalqın yaddaşı, mənəvi dünyası, düşüncəsi, həyatı, keşməkeşləri, kədəri, sevinci təsvir edilir. Poemada tarixin təsdiqi ilə yanaşı bu günə ünvanlanmış suallar oxucunu düşünməyə vadar edir ,dünənlə bu günün müqayisəsində xalqın haradan-haraya gəldiyini bizə göstərir. Poemada publisistik ton aparıcı olsa da, xalq ruhunun bədii ifadəsinin zənginlikləri əsəri sənət baxımından Şəhriyarın *"Heydərbabaya salam"* poeması ilə müqayisə etməyə imkan verir. Ümumiyyətlə, poemada xalq ruhu, düşüncəsi, həyatı, tarixi, bu günü və gələcəyi əsas yer tutur və xalq ruhunun tərcümanı kimi yadda qalır". Başqa nə demək olar? Çox dəyərli düşüncələrdir.

*"Əli Rza Xələfli - 65"* kitabının II cildində Tofiq Hacıyevin də çox dəyərli bir yazısı var. Bu yazı məndə çox kövrək duyğular oyatdı. Demək, professor Tofiq Hacıyev ömrünün son günlərində Əli Rza Xələflinin yaradıcılığı ilə bağlı düşüncələrini qələmə alıb. *"Xələfli sözünün cazibəsi"* adı ilə həmin yazı kitabda görkəmli alimin qardaşı oğlu İsmayıl Hacıyevin təqdimi ilə işıq üzü görüb. Publisist, jurnalist İsmayıl Hacıyevin qeydlərindən məlum olur ki, böyük alim *"Xələfli sözünün cazibəsi"* adlı yazısı ilə Əli Rza Xələfli yaradıcılığına mükəmməl münasibət bildirmək fikrində olub. Bu yazıda Əli Rza Xələfli ilə klassik sənətkarımız Seyid Nigari arasında mənəvi bağlılıqdan da söhbət gedir. Xalq yazıçısı Anarın *"Ağ qoç, qara qoç"* əsəri də bu yazıda xatırlanır. Hətta Tofiq Hacıyev Əli Rza Xələflinin *"Arzulara dəyən güllə"* kitabından bir parçanı 11-ci sinif üçün dərsliyə də daxil edir. İndi həmin qeydləri burada təfərrüatı ilə xatırlatmaq imkanım yoxdur. Ancaq onu deyə bilərəm ki, Əli Rza Xələflinin zəngin yaradıcılığı görkəmli alimimiz Tofiq Hacıyevin də diqqətini zamanında cəlb edib. Ancaq onun iki cümləsini - sözünün əvəlindəki düşüncəsini burada diqqətə çəkmək olar: *"Xələfli" təxəllüsü ilə yazan müəlliflər çox olmasa da, hər halda tək də deyil. Ancaq Əli Rza Xələfli artıq ədəbi mühitdə öz üslubu, mövzusu, özünüifadə imkanları ilə seçilir və tanınır".* Zənnimcə, kifayət edər.

Söz adamı elə sözü ilə görünür, sözü ilə tanınır. Xələfli haqqında deyilənlər də, elə bu qənaətin doğruluğunu təsdiq edir. *"Əli Rza Xələfli - 65"* ikicildliyinin sonuncu cildinin də zaman-zaman oxucular üçün dəyərli olacağına inanıram.

Qarşıdan Əli Rza Xələflinin 70 illik yubileyi gəlir, biz yeni yubiley üçün yeni layihə üzərində işləyirik.

Nə qədər söz var, biz də varıq.

***25.05.2022***